*23 Aprel - Ümumdünya kitab və müəlliflik hüququ günüdür*

# Həyat bələdçisi

Kitab sənətinin müasir səviyyəyə çatanadək keçdiyi inkişaf yolunu bütün ölkələr eyni vaxtda qət etməmişdir. Çox qədim tarixi olan Yaxın və Orta Şərq xalqları öz qədim yazılı mədəniyyətlərini yuxarıda qeyd etdiyimiz üsullarla, orta əsrlərdə isə əlyazma kitabları vasitəsilə, daha sonra çap üsuluna başlaya bilmişlər. Azərbaycan da bu cəhətdən çox tipik bir ölkədir. Hələ orta əsrlərin zülməti içərisində dahilər yetişdirən Azərbaycan kitab çapına olduqca gec başlamışdır. Bu işə Qərbi Avropa XV əsrdən başlamışdır. Lakin müsəlman Şərqi həmin yolda ilk addımlarını ancaq yaxın əsrdə atmışdır. Yazılı mənbələr ərəb işğalına qədərki dövrdə Azərbaycan xalqının əlyazması halında xeyli kitab sərvəti olduğunu ehtimal etməyə haqq verir. Kitab çapı insan həyatında çox rol oynadı. Qədim əlyazmalar tariximizin böyük bir hissəsini təşkil edir. Bu gün Londonda, Parisdə, Vatikanda, Drezdendə, Nyu-Yorkda, İstanbulda və s. digər dünya kitabxanalarında xəzinələrimiz - qədim kitablarımız mühafizə edilir. Xalqımızın zəkasının ən qiymətli inciləri olan kitablar, milli mənəvi iftixar yerimiz, böyük maraq dünyamızdır. Orta əsrlərdə kitabların sayını artırmaq məqsədilə xəttatlar və katiblər onların surətini bir neçə dəfə köçürürdülər. Bundan sonra işi asanlaşdırmaq üçün əlyazmalar Daşbasma (daşçapı) üsulu ilə çap olundu. Daşbasma üsulunda hazırlanan kitablar çox gözəl nəfis tərtibata malik idi. Daşbasma kitablarının səhifələri üzərindəki nəbati və həndəsi ornamentlər daşbasması üsulu ilə hazırlanırdı.



Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi qədim tariximizi yaşadır, təbliğ və mühafizə edir. Bu mühafizə edilən nümunələr içərisində müxtəlif əlyazma və çap kitabları var. Qədim tarixə malik bu kitablardan "Quran"lar, o cümlədən daşbasma üsuli ilə ərsəyə gələn və müxtəlif sadə əlyazmalar, XİX əsrin əvvələrinə aid çap kitabları muzeyimizin ən dəyərli eksponatlarındandır. Sədi Şirazinin "Bustan", "Gülüstan", Məhəmməd Füzulinin "Küliyyatı", həmyerli xəttatlarımızdan Abdulla Qutqaşınlının, Molla Güli Zalaminin, Mahmud Hacı Əhməd Əfəndi Qutqaşınlının, Mustafa Məhəmməd oğlu Buminin, Məhəmməd Abdullanın və s. dəyərli və əvəzsiz əlyazmaları mühafizə edilməkdədir. Abdulla Qutqaşınlının azərbaycanca, farsca şeirlər məcmuəsi 1848-ci ildə nəşr olunmuşdur. Bütün əlyazmaların əsli Respublika Əlyazmalar İnstitunda saxlanılır. Mustafa Məhəmməd oğlu Bumi tərəfindən köçürülmüş Şeyx Sədi Şirazinin "Gülüstan"əsərinin əlyazmasının foto surəti də unikal sənət nüminəsi kimi gələcək nəsillərə yadigar saxlanılır.

Əhalinin elmi biliklər əldə etməsi, maraq dairəsinin genişliyi Azərbaycanda ümumi kitab çapına təkan verdi. Ə. Haqverdiyevin "Köhnə dudman" (1927), Ü.Hacıbəyovun "Şah Abbas və Xurşudbanu" (1926), R.B.Əfəndiyevin "Bəsürətül-Ətval" (1926), Divanbəy oğlunun "Can yanğısı" (1920), D.Şərifovun "Raskopki v Yaloylu-Tapa" (1927), Mirzə Ələkbər Sabir Tahirzadənin şeirlərinin tam külliyatı - "Hophopnamə" (1914), (Naşirəsi. Mərhum Sabirin zövcəsi Xanım Tahirzadə. Bakı. İsabəy Aşurbəylinin "Kaspi" mətbəəsi, 1914. Müqəddimə Abbas Səhhətin, şəkillər Əzim Əzimzadənindir. Ərəb Əlifbası ilə Azərbaycan dilindədir) və s. yazarların əsərləri çap edilmişdir.

Daha bir maraq doğuran, qiymətli nümunə Mirzə Abdulxalıq Axundovun "Müalicə" kitabıdır. Əsər 1914-cü ildə nəşr olunmuşdur. Bu məcmuə Azərbaycanda 1780-1920-ci illərdə nəşr edilmiş kitabları özündə əks etdirən "Azərbaycan kitabı" ( Bakı.1963) məlumat-biblioqrafiya nəşrinə düşmədiyindən çox nadir nüxsə sayılır.

"İrşadi-İslam" əsəri də həmin illərdə çap edilmişdir. Kitabın müəllifi Əfəndizadə Hacı Əhməd Əfəndidir. Kitab 1911-ci ildə Bakıda Orucov qardaşları mətbəəsində nəşr olunmuşdur. Yelzavetpol quberniyasının Nuxa qəzasının Qutqaşın kəndinin din xadimi Əfəndizadə Hacı Əhməd Əfəndinin əsəridir. Naşiri Molla Səid Əfəndiyevdir. 24 səhifədən ibarət olan bu kitab hal-hazırda dünyada iki ədəddir. Onlardan biri M.Y.Saltıkov - Şedrin adına Rusiya Federasiyasının Peterburqdakı Dövlət Kitabxanasında, o biri isə Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanılır.

Xatırladaq ki, XIX əsrin nümunəsi olan bu kitabların içində 14 ədəd "Quran" əlyazma və çap kitab halında fondumuzda əsas yer tutur. Daşbasma üsulu ilə 1848-ci ildə Tehranda cap olunmuş Şeyx Sədi Şirazinin "Külliyyatı" da bura daxildir. Həmin kitablar arasında XIX əsrin sonu XX əsrin əvvəlinə aid çap üsulu ilə hazırlanan "Hesab" kitabı həmin dövrün dərsliyi, vəsaiti, bu günümüz ücün qiymətli, zəngin muzey sərvətidir.

Tariximizin bütün sirrləri kitablarda əks olunur, qorunur, yaşanır. Kitabları sevmək, qorumaq lazımdır. Çünki, kitablar silinməz yaddaşımız, ən müdrik həyat bələdçimizdir.

**İlhamə SEYİDOVA,**
**"Qəbələ"nin ştatdankənar müxbiri.**

# Təbii fəlakət və əhali



Qəbələ rayonu Bunud kənd inzibati ərazi nümayəndəliyində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin, Qəbələ Rayon İcra Hakimiyyətinin əməkdaşları tərəfindən "Sel və daşqınların dağıdıcı təsirinin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi və təbii fəlakət zamanı əhalinin davranışı" qaydaları mövzusunda maarifləndirici profilaktik tədbir keçirilmişdir.

# İcazəsiz hasarlama işləri

Qəbələ Rayon İcra Hakimiyyətinin, rayon polis şöbəsinin, Fövqəladə Hallar Nazirliyinin Şimal - Qərb Regional Mərkəzinin və digər aidiyyəti qurumların əməkdaşları tərəfindən rayon ərazisində özbaşına aparılan tikililərin və torpaq zəbtlərinin qarşısının alınması məqsədilə mütəmadi olaraq monitorinqlər keçirilir. 9 aprel 2025-ci il tarixdə keçirilən növbəti monitorinq zamanı Muğanlı - Ismayıllı - Qəbələ avtomobil yolunun Qəbələ rayonu Nohurqışlaq kəndi ərazisindən keçən hissəsinin mühafizə zolağında vətəndaş tərəfindən 0,07 hektar ərazidə özbaşına aparılan hasarlama işlərinin qarşısı alınaraq ərazi boşaldılmışdır. Bir daha vətəndaşların diqqətinə çatdırılır ki, mülkiyyətində olmayan torpaq sahələrinin zəbt olunaraq hasarlanması, özbaşına tikinti işləri aparılaraq müxtəlif məqsədlər üçün istifadəsi yolverilməzdir.

# Tarixi faciə

Çernobıl - Ukrayna SSR-in şimalındakı Pripyat şəhəri yaxınlığında Çernobıl Atom Elektrik Stansiyasının 4 saylı nüvə reaktorunda 1986-cı il 26 aprel tarixində baş vermiş fəlakətli nüvə qəzası. Sınaq, təcili vəziyyət generatorları güc təmin edənə qədər reaktor soyutma suyunun dövranını təmin etmək üçün bir təhlükəsizlik proseduru yaratmaq məqsədi ilə elektrikin kəsilməsi simulyasiyası idi. Bu aralıq təxminən 1 dəqiqə idi və nüvənin həddindən artıq qızmasına səbəb ola biləcək potensial bir təhlükəsizlik problemi olaraq təyin edilmişdi. 1982-ci ildən etibarən üç belə test keçirilmişdir, lakin həlli tam təmin edilməmişdi. Təəssüf ki, bu dördüncü test 10 saat gecikdirildi və test proseduru üçün xüsusi hazırlanmış heyət, başqa heyət ilə əvəzləndi. Sınağın keçirildiyi zaman reaktorun elektrik səviyyəsi 700-1000 vat aralığında olmalı idi. Lakin test prosedurunun heyəti bu dərəcəni 200 vata qədər düşürdü və bu zaman qəflətən böyük miqdarda enerji itkisi baş verdi, həddindən artıq isidilmiş soyutma suyunu buxarlaşdırdı, reaktor təzyiqli qabı ani bir açıq hava reaktoru nüvəsi atəşi ilə izləyən yüksək dərəcədə dağıdıcı bir buxar partlayışında partladı...

## Elan

***Nohurqışlaq bələdiyyəsinə Mühasib və vergi Agenti vəzifəsinə işçi tələb olunur.***




QƏBƏLƏ qəzetinə

2025-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 20 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.


## İTMİŞDİR

Qəbələ rayon Vəndam qəsəbə sakini **Baxışlı Çinarə Mübariz qızına** məxsus **doğum haqqında Şəhadətnamə, natamam orta təhsil haqqında Attestat və Peşə təhsili haqqında Diplom itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Bum qəsəbə sakini **Ağabəyov Qafur Zeyfəm oğluna** məxsus 03 BE 719 nömrəli minik avtomobilinin **texniki qeydiyyat Şəhadətnaməsi, sürücülük Vəsiqəsi və şəxsiyyət Vəsiqəsi itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Bunud kənd sakini **Ələkbərli Elcan Mahir oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Mollaşıxalı kənd sakini **Məmmədov Əhəd İlqar oğluna** məxsus Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi tərəfindən verilmiş **tələbə bileti itdiyi üçün** etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

«Qəbələ» qəzetinin kollektivi iş yoldaşları **Bibixanım isayevaya** dayısı

**RƏFAİLİN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlıtı verir.

«Qəbələ» qəzetinin kollektivi iş yoldaşları **Bibixanım isayevaya** yaxın qohumu

**EYYUBUN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlıtı verir.


Redaktor Azad Məmmədov.

*TƏSİSÇİ:* Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1050*